Azərbaycanın beynəlxalq əməkdaşlıqda yüksəliş dövrü

***D-8** İqtisadi Əməkdaşlıq Təşkilatı inkişaf etməkdə olan səkkiz müsəlman ölkəsinin birləşdiyi beynəlxalq qurumdur. Buradakı 8 rəqəmi ölkələrin sayına, "D" hərfi isə "Developing" (inkişaf etməkdə olan) sözünə işarə edir. Sözügedən alyansın yaradılması ilə bağlı 1996-cı ildə Türkiyə təşəbbüs irəli sürüb və bir il sonra Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya, Pakistan və Türkiyə tərəfindən İstanbulda təsis olunub. Təşkilatın üzvləri ümumilikdə 1,2 milyard nəfəri əhatə edir və bu, dünya müsəlmanlarının 60%-ni təşkil edir. Bu baxımdan D-8 həm də İslam dünyasının iqtisadi gücünü birləşdirmək məqsədini güdür.*

Eyni zamanda, alyans Şərq və Qərb arasında körpü rolunu oynayır. Çünki sözügedən təşkilat geosiyasi baxımdan əhəmiyyətli olan tranzit məntəqələrində yerləşən ölkələri birləşdirir. Təşkilatın əsas məqsədi üzv ölkələr arasında iqtisadi, ticarət və sosial sahələrdə əməkdaşlığı gücləndirməkdir. 8 inkişaf etməkdə olan ölkə arasında sərbəst ticarət zonasının yaradılması, eləcə də iqtisadi inteqrasiyanın təşviqi əsas istiqamətlərdəndir. D-8 yeni hədəflərini "2020-2030 illər yol xəritəsi" sənədində müəyyən edib. Bu dövr ərzində üzv ölkələrin iqtisadi əlaqələrinin daha da dərinləşdirilməsi və inkişaf edən qlobal bazarlara inteqrasiyasına diqqət ayrılacaq. Bundan əlavə, alyansın gündəliyində dayanan daha bir vacib məsələ məhz tərkibinin genişləndirilməsi ilə bağlıdır. Dekabrın 19-da bu istiqamətdə vacib addım atıldı. Misirin paytaxtı Qahirədə İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının XI Sammiti çərçivəsində Azərbaycan yekdilliklə D-8-in üzvü seçildi. Prezident İlham Əliyev Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsi ilə bağlı rəsmi "X" hesabında paylaşım edib. Dövlətimizin başçısı Azərbaycanın D8-ə namizədliyinə dəstək verən ölkələrə təşəkkür edib: "Bu gün Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın təşkilata üzv qəbul edilməsinə görə Türkiyə, Pakistan, Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeşin dövlət və hökumət başçılarına təşəkkürümü bildirirəm. Azərbaycanın namizədliyinə dəstək bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da ölkəmizin D-8 üzv olmaq qərarını alqışlayıb. "Azərbaycanın qəbulu ilə təşkilatımız bu gün dünənkindən daha güclüdür. Qardaş Azərbaycana, D-8 ailəsinə "Xoş gəlmisiniz" demək istərdim", - deyə Türkiyə Prezidenti bildirib. Bunların fonunda aydın olur ki, D-8-ə üzvlüyümüz ilk növbədə ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun təsdiqidir. Eyni zamanda, rəsmi Bakıya olan etimadının bariz nümunəsidir. Bundan əlavə, D-8-ə üzv olmaq Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatına üzvlük ilə əlaqələndirilən xarici siyasət prioritetlərini dəstəkləyir. Həmçinin bu üzvlük Azərbaycanın İslam dünyasında həmrəyliyin möhkəmlənməsinə, İslam dəyərlərinin təbliğinə və islamofobiya ilə mübarizəyə böyük dəstək verəcəyini göstərir.

D-8 üzvlüyü Azərbaycanın dünya iqtisadiyyatına daha sıx inteqrasiya olmasına və həm regional, həm də qlobal səviyyədə iqtisadi və ticarət əlaqələrinin genişlənməsinə imkan verəcək. Ölkəmiz inkişaf etmiş nəqliyyat infrastrukturu, strateji tranzit mövqeyi və geniş iqtisadi potensialı ilə D-8-in üzvləri ilə daha sıx əməkdaşlıq edəcək və təşkilatın möhkəmlənməsinə töhfə verəcək. Azərbaycanın D-8-ə üzv olması ölkəmizin regional və beynəlxalq sabitliyin qorunmasına, iqtisadi və ticarət əlaqələrinin inkişafına və əməkdaşlığın daha da dərinləşməsinə mühüm töhfələr verəcəyinə əminlik yaradır. Eyni zamanda, rəsmi Bakı D-8 təşkilatına qoşulmaqla özünün multilateralizmə sadiqliyini bir daha nümayiş etdirib.

Azərbaycanın D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzvlüyü yalnız ölkəmizin beynəlxalq mövqeyinin gücləndirilməsi baxımından deyil, həm də regionda sabitliyin və iqtisadi tərəqqinin təmin olunması baxımından əhəmiyyətli addımdır. Bu, Azərbaycanın davamlı inkişaf, müsbət xarici əlaqələr və güclü regional əməkdaşlıq strategiyalarını həyata keçirməsi üçün yeni imkanlar açacaq. D-8 təşkilatına üzv olaraq Azərbaycan həm İslam həmrəyliyinə, həm də qlobal iqtisadi inkişafın gücləlnməsinə mühüm töhfələr verəcək. Bu addım ölkəmizin beynəlxalq aləmdə artan rolunun və strateji əhəmiyyətinin əyani sübutudur.

Azərbaycanın D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olması, ölkəmizin beynəlxalq aləmdəki mövqeyini möhkəmləndirəcək, iqtisadiyyatını daha da şaxələndirəcək və regional sabitlik və təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayacaq. Bu, həmçinin Azərbaycanın inkişaf etməsinə, dünya bazarlarında daha çox yer tutmasına, regional və qlobal səviyyədə güclü diplomatik əlaqələr qurmasına imkan yaradacaq.

Jalə QASIMZADƏ,
"Respublika".